Uşaqlar üçün Müqəddəs Kitab

təqdim edir



# Daniel və şirlərin quyusu

Müəllif: Edward Hughes

İllüstrasiya edən: Jonathan Hay

Uyğunlaşdıran: Mary-Anne S.

Tərcümə edən: Günay Əsədova

Təqdim edən: Bible for Children
www.M1914.org

©2017 Bible for Children, Inc.
Lisenziya: Bu kitabı satmamaq şərti ilə kitabın surətini çıxarda bilmək hüququna maliksiniz.

Dara Babildə padşah idi.  O, ağıllı idi.
O, ölkəyə başçılıq etmək üçün padşahlığın
bütün ərazisinə
yüz iyirmi
canişin
təyin etdi.



Sonra onlara başçılıq etmək üçün üç vəzir seçdi.  Daniel o üç vəzirdən biri idi.



Padşah Dara Danielə o qədər çox hörmət edirdi ki, onu bütün padşahlıq üzərində



başçı təyin etmək istəyirdi.

Digər vəzirlər və canişinlər paxıllıq edirdilər.  Onlar Danieli ölkənin idarə işlərində ittiham etmək üçün bir bəhanə axtarmağa başladılar.



Nə qədər çox çalışsalar da, heç bir bəhanə və təqsir tapa bilmədilər.  Çünki Daniel etdiyi bütün işlərdə padşaha sadiq idi. Həmçinin, o çox ehtiyatlı və ağıllı idi.  Həmişə bacardığı qədər ən yaxşını etməyə çalışırdı.



Bu paxıl adamlar Danieli ittiham etmək üçün yalnız bir yolun olduğunu bilirdilər. Onlar bilirdilər ki, yer üzərində heç bir şey onu İsrailin Allahına ibadət etməkdən saxlaya bilməz.



Danielin düşmənləri plan qurdular. Onlar padşahın imza atması üçün yeni qanun çıxartdılar. Qanunda deyilirdi ki, hamı yalnız padşah Daraya dua etməlidir. Buna itaət etməyən hər bir kəs şirlərin quyusuna atılacaqdı!



Padşah Dara yeni qanuna imza atdı.



Yeni qanunun Daniel üçün heç bir əhəmiyyəti yox idi. O həmişə etdiyi şeyi etdi. O, gündə üç dəfə öz açıq pəncərəsinin yanında diz çökürdü və göylərin Allahına dua edirdi.







Paxıl vəzirlər bunu padşaha deməyə tələsdilər. Padşah Daranın Danieli zindana atmaqdan başqa bir seçimi yox idi.

Qanuna əməl edilməli idi. Daniel ölməli idi. Padşah çox çalışdı, amma o, qanunu dəyişdirmək üçün yol tapa bilmədi.



Daniel şirlərin quyusuna atılmaqla ölümə məhkum edildi. Daniel ac şirlərin yanına atılmazdan əvvəl, padşah Dara ona dedi: “Daim qulluq etdiyin Allahın səni qurtarsın!”



Padşah o gecəni yata bilmədi.  Səhər açılanda padşah yerindən qalxıb tələsik şirlərin olduğu quyunun yanına getdi.



Danieli çağırıb dedi: “Ey Daniel, var olan Allahın qulu!  Daim qulluq etdiyin Allahın səni şirlərdən qurtara bildimi?”

Bəlkə o, bir cavab gözləmirdi.

Amma Daniel cavab verdi!



Daniel padşaha dedi: “Qoy padşah həmişə sağ olsun!  Allahım Öz mələyini göndərib şirlərin ağzını bağladı və onlar mənə toxunmadı, …



... çünki
mənim
Allahın önündə
təqsirsiz olduğum
bilindi.  Ey
padşah, sənə
qarşı da heç
bir cinayət
etməmişəm”.



Padşah Dara çox sevindi!
Danieli quyudan
çıxarmağı əmr etdi.



Padşah bildi ki, Allah Danieli qurtardı və Danielin düşmənləri Allahın düşmənləri idi.



O, sərəncam verdi
və pis qanuna imza atmaq
üçün ona hiylə quranların
hamısını şirlərin
quyusuna
atdılar.
Şirlər
onları
yedi.



Padşah Dara istəyirdi ki, bütün dünya Göylərin Allahının onun sadiq qulu Danieli qoruduğunu bilsin. Padşah hamının yaşayan Allaha ibadət etməsini əmr edən məktub yazdı. Padşah Danieli şöhrətə və başçılığa bərpa etdi.



Daniel və şirlərin quyusu

Allahın Sözü, Müqəddəs Kitabdan olan bir hekayədir

Daniel 6

“Kəlamının açıqlanması nur saçır”.
Məzmur 119:130

# Son

Bu Müqəddəs Kitab hekayəsi bizə, bizi yaradan və Onu tanımağımızı istəyən Allahımızdan bəhs edir.

Allah, Onun günah adlandırdığı pis şeyləri etdiyimizi bilir. Günahın cəzası ölümdür, lakin Allah səni o qədər çox sevir ki, O, Öz yeganə Oğlunu, İsanı Çarmıxda ölmək və sənin günahlarına görə cəzalandırılmaq üçün göndərdi. Sonra İsa dirildi və Göylərə getdi! Əgər sən İsaya inansan və Ondan günahlarını bağışlamasını diləsən, O, bunu edəcək!; O indi gələcək və daxilində yaşayacaq və sən əbədiyyən Onunla birlikdə yaşayacaqsan.

Əgər sən bunların həqiqət
olduğuna inanırsansa, onda bunu Allaha de:
Əziz İsa, mən inanıram ki, Sən Allahsan və
mənim günahlarıma görə ölmək üçün insan oldun
və indi Sən yenidən yaşayırsan.  Xahiş edirəm,
həyatıma gəl və mənim günahlarımı bağışla ki,
mən indi yeni həyata malik ola və bir gün Səninlə
birlikdə əbədiyyən yaşaya bilim.  Sənə itaət
etməkdə və Sənin övladın kimi yaşamaqda mənə
kömək et.  Amin.

**Müqəddəs Kitabı oxu və hər gün**
**Allahla danış!   Yəhya 3:16**